**NABAT CƏFƏROVA**
**Pedaqogika elmləri doktoru**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**Üzeyir Hacıbəyli, 68, Bakı, Səbail,**
**Cafarova_nabat@mail.ru**

# DIL QAYDALARI ÜZRƏ İŞİN NİTQ İNKIŞAFI İLƏ İNTEQRATİV TƏŞKİLİ

**Xülasə**

Dil qaydaları məzmun xətti dilin fonetik, leksik və qrammatik quruluşu ilə bağlı ən zəruri biliklərin yığcam, sadə, aydın qayda və şərhlər formasında şagirdlərə catdırılmasını, orfoqrafiya qaydalarına riayət edilməsini, durğu işarələrindən yerli-yerində düzgün istifadə olunmasını təmin edir. Şagirdlərin həm oxu, həm də yazı qabiliyyətlərinin inkişafı üçün zəmin yaradır. İbtidai siniflərdə müəllimin fəaliyyəti onun yetişdirdiyi şagirdlərin nitq bacarıq və vərdişlərinin, nitq mədəniyyətinin səviyyəsi ilə ölçülür. Dil qaydalarının tədrisi şagirdlərin şifahi və yazılı nitq bacarıqlarının formalaşmasında mühüm rol oynayan ən zəruri linqvistik biliklərin öyrənilməsini, mədəni nitq üçün vacib sayılan mühüm tələblərin qavranılmasını təmin edir. Dil qaydaları üzrə işin nitq inkişafı ilə inteqrasiyası sözlərin düzgün tələffüzü və yazılışı işini asanlaşdırır. Dil qaydalarını mənimsəyən şagird onu yüzlərlə sözə tətbiq edə bilir. Dil qaydalarının öyrənilməsinin nitq inkişafı ilə inteqrativ təşkili nitq mədəniyyətinin formalaşmasına xidmət edir.

Müasir təhsil sistemində inteqrasiya mühüm prinsip kimi xüsusi əhəmiyyət daşıyır. İnteqrasiya sözünün kökü latınca "bütövləşmə", "bütövləşdirmə" mənalarını daşıyan "integratio" sözündən alınmışdır. Müxtəlif elm sahələri üzrə-fəndaxili, fənlərarası və transfənn biliklərin inteqrasiyası şagird təfəkküründə ətraf aləm haqqında vahid, tam, bütöv dünyagörüşünün formalaşmasına kömək edir.

**Açar sözlər:** dil qaydaları, nitq inkişafı, şifahi nitq, yazılı nitq, inteqrasiya

Fənlərarası inteqrasiya bir neçə fənnin əhatə etdiyi ortaq bilik və bacarıqların sintezi olmaqla, bir fənnə aid anlayışların və metodların digər bir fənnin tədrisində istifadəsini nəzərdə tutur. Bu inteqrasiya müxtəlif fənlər arasında məntiqi əlaqələrin qurulmasına xidmət edir[11]. Bu proses eyni bir bacarığın ayrı-ayrı fənlər vasitəsilə daha da təkmilləşdirilməsini təmin etməklə təlim prosesinin səmərəliliyinin artırılmasına şərait yaradır. Məsələn, dil qaydalarının tədrisi zamanı nitq bacarıqlarının inkişaf etdirilməsi, dilə aid termin və ifadələrdən düzgün və səlis istifadə edilməsi şagirdlərin dialoq və diskussiyalarda aktiv iştirakını təmin etməklə yanaşı, Azərbaycan dili fənninin əsas məzmun xətlərindən biri olan şifahi nitqin ("Dinləmə-anlama-danışma") formalaşmasına kömək edir. Dil qaydalarına aid terminləri düzgün ifadə etmək ümumi dil bacarıqlarının tərkib hissəsidir. Oxuma, danışma, dinləmə, təqdimetmə, yazma, şəkli sözlə təsviretmə (şəkli oxuma) və təqdimetmə kimi nitq bacarıqlarının dərk olunmasında dil qaydalarının rolu çox böyükdür.

Nitq inkişafı ilə dil qaydalarının inteqrasiyası şagirdlərin araşdırma aparmaq, problemləri həll etmək, nəticə çıxarmaq kimi bacarıqlara yiyələnməsini təmin edir. Müəllimlərin çoxu pedaqoji inteqrasiya anlayışının prosesual aspektinə daha çox istinad edirlər. Bu da təsadüfi deyildir, çünki inteqrasiya praktik müstəvidə daha konkret və faydalıdır. Belə ki, ibtidai təhsil səviyyəsində məzmun xətləri üzrə təlim nəticələri "Dil qaydaları" üzrə aşağıdakı kimi verilmişdir: (sagird):

•yaş həddinə uyğun zəruri fonetik, leksik, qrammatik biliklərə yiyələndiyini nümayiş etdirir;

•seçdiyi dil faktlarını qruplaşdıraraq təqdim edir;

•dinlədiyi fikri anladığını nümayiş etdirir;

•şifahi nitq bacarıqlarına malik olduğunu nümayiş etdirir;

•qarşılaşdığı sözlərin mənasını başa düşdüyünü nümayiş etdirir;

•oxu texnikasına və vərdişlərinə yiyələndiyini nümayiş etdirir;

•yazı texnikasına və vərdişlərinə yiyələndiyini nümayiş etdirir;

•kalliqrafiya və orfoqrafiya qaydalarını gözləməklə müxtəlif növ yazılı çalışmaları (üzündənköçürmə yaddaşa əsasən yazı, imla, ifadə, inşa) yerinə yetirir;

•fonetik, leksik, morfoloji, sintaktik, orfoqrafik qaydaları mənimsədiyini nümayiş etdirir [ 1, s.3].

Göründüyü kimi, dil qaydaları məzmun xətti dilin fonetik, leksik və qrammatik quruluşu ilə bağlı ən zəruri biliklərin yığcam, aydın, sadə qayda və şərhlər formasında şagirdlərə catdırılmasını, orfoqrafiya qaydalarına riayət edilməsini, durğu işarələrindən yerli-yerində düzgün istifadə olunmasını təmin edir. Şagirdlərin həm oxu, həm də yazı qabiliyyətlərinin inkişafı üçün zəmin yaradır. Məhz ibtidai siniflərdə müəllimin fəaliyyəti onun yetişdirdiyi şagirdlərin nitq bacarıq və vərdişlərinin, nitq mədəniyyətinin səviyyəsi ilə ölçülür. Dil qaydaları isə nitq inkişafı üzrə işin təşkilinə, nitq mədəniyyətinin formalaşmasına xidmət edir. Dil qaydaları şagirdlərin şifahi və yazılı nitq bacarıqlarının formalaşmasında mühüm rol oynayan ən zəruri linqvistik biliklərin öyrənilməsini, mədəni nitq üçün vacib sayılan mühüm tələblərin qavranılmasını, ədəbi dilin funksional və fərdi üslublarının səciyyəvi xüsusiyyətlərinin dərk olunmasını, fərqləndirilməsini və təcrübədə tətbiqini təmin edir. Dil qaydalarının öyrənilməsi sözlərin düzgün yazılış işini asanlaşdırır. Dil qaydalarını mənimsəyən şagirdlər onu yüzlərlə sözə tətbiq edə bilir, əvvəlcə, şifahi nitqdə çox işlənən və tələffüzü nisbətən asan olan sözləri, daha sonra isə yazılışı çətin sözləri, yazılışı və tələffüzü fərqlənən sözləri öyrənirlər.

Dil qaydaları və nitq inkişafı üzrə işin inteqrativ təşkilinin ilkin əsası odur ki, nitq dilin bütün sahələri ilə əlaqəlidir. Məsələn, şagirdlər fonemlərin artikulyasiyasını, sözlərdə ayrı-ayrı səsləri necə tələffüz etdiklərini, necə danışdıqlarını eşitməyi bacarmalı, nitqdə işlətdikləri sözlərin, ifadə və cümlələrin leksik və qrammatik mənasını başa düşməlidirlər. Bunsuz dili mənimsəmək, nitq inkişafı üzrə işi təşkil etmək, nitqin emosional çalarlığını hiss etmək çox çətindir. Həmçinin uşağın ilkin cümlələri qrammatik cəhətdən natamam, qeyri-ardıcıl olur. O, səs komplekslərini eşidir, mənanı başa düşmədən onları tələffüz edir, sonra leksik mənası üzərində düşünür. Mənanı başa düşməklə ilk sintaktik mücərrədləşdirmə aparır, konstruksiyalar qurur.

Odur ki, ibtidai siniflərdə elə ilk gündən şagirdlərin nitqinin müşahidəsi, izlənilməsi təşkil edilir və qüsurların aradan qaldırılması yolları araşdırılır. Bu, həmçinin şagirdlərin dil qaydalarını-fonetika, orfoepiya, orfoqrafiya, leksika, morfologiya və sintaksisə dair müəyyən həcmdə bilikləri mənimsəməsindən asılıdır. Şagirdlər dil qaydalarının köməyi ilə xarici aləmin nitqdə necə əks olunduğunu öyrənirlər.

“Dil struktur-semantik asılılıq təşkil edən bütöv sistemdir: onun yalnız bir cəhətinə diqqəti cəlb etmək, dərsi yalnız təriflər, qydalar üzərində qurmaqla kifayətlənmək şagirdləri bir çox bacarıq və vərdişlərdən məhrum edə bilər” [9, s.9].

Müəllim çalışmalıdır ki, şagirdlər nitqin düzgünlüyünü, ifadəliliyini, müxtəlif çalarlığını qiymətləndirməyi bacarsınlar. Bu məqsədlə dil qaydalarının nitqlə səslənməsini, morfem, səs, söz birləşməsinin necə ifadə edildiyini diqqətdə saxlamaq lazımdır. Dildəki hər bir sözün mənasına, imkan daxilində etimologiyasına, məna çalarlığına, onlardan harada necə istifadə

olunmasına diqqət yetirmək, dilin konstruksiyasını başa düşmək və onunla əməliyyat apara bilmək uşaqlarda dilə həssaslığı inkişaf etdirir, doğma dilə sevgi yaradır.

Belə ki, altıyaşlılar məktəbəqədər dövrdə az sözlə öz ehtiyaclarını ödəyə bildikləri halda, məktəb dövründə fikirlərini ifadə etmək üçün daha çox və mürəkkəb dil vahidlərindən istifadə etməli olurlar. Məktəbdə nitq inkişafı ilə bağlı sistemli iş aparıldıqda məqsədyönlü ünsiyyət şagirdlərin nitqinə güclü təsir göstərir. Nitq inkişafı üzrə işin təşkilində əsas məsələ cümlələrin yaranması, fikrin ifadə olunması, sözlərin leksik və qrammatik mənalarının düzgün dərk olunması, kök morfemlərin və şəkilçi morfemlərin nitqdə oynadığı rolun öyrənilməsidir. Bu da dil qaydaları üzrə işin nitq inkişafı ilə əlaqələndirilməsinin zəruriliyini əsaslandırır.

Azərbaycan dili dərslərində söz yaradıcılığı üzrə aparılan praktik işlər sözdüzəldici şəkilçilərin praktik imkanlarını müəyyənləşdirməkdə şagirdlərə kömək edir. Məsələn, gül, güldan, güllü və s. düzəltmə sözlərdə söz kökünün ifadə etdiyi məna şagirdlərə tanışdır [7,s. 124]. Azərbaycan dilində müxtəlif mənaları ifadə edən, lakin formaca eyni olan söz və şəkilçilərə də rast gəlinir. Müəllim bu şəkilçilərin qoşulduğu düzəltmə sözlərə aid nümunələr verməklə fərqi izah etməli, belə sözlərin şagirdlərin fəal lüğətinə daxil olması istiqamətində iş aparmalıdır.

Mövcud Azərbaycan dili proqramında(kurikulumunda)(I-IV siniflər) müəllimin diqqəti daha çox şagirdlərin nitqini inkişaf etdirməyə yönəldilmiş, ayrı-ayrı mövzuların tədrisində, oxu materialları üzərində nitq inkişafı üzrə aparılacaq işlər konkret şəkildə göstərilmişdir. Kurikulumdan əvvəlki proqramlarda da nitq inkişafı məsələsi diqqətdə saxlanılırdı:“Azərbaycan dilindən keçirilən dərslər vasitəsilə şagirdlər qrammatikanın əsaslarını mənimsəməli, yazılı və şifahi nitqə, ...dair möhkəm vərdişlər qazanmalıdırlar”[3, s.4]. “Qrammatikanın tədrisi zamanı şagirdlərin nitqini inkişaf etdirmək, onların lüğət ehtiyatını zənginləşdirmək, qiraət dərslərini təkmilləşdirmək, tələffüzlərinin düzgün və ifadəli olmasını, rabitəli nitqə yiyələnmələrini təmin etmək üzrə işlər geniş yer tutmuşdur”[3, s.5].

İbtidai siniflərdə dil qaydaları ilə əlaqədar nitq inkişafı üzrə aparılacaq işlər, təxminən aşağıdakı kimi müəyyənləşdirilmişdir:

- nitq hissələri vasitəsi ilə şagirdlərin lüğət ehtiyatının zəngiləşdirilməsi;
- nitq hissələri vasitəsi ilə şagirdlərin oxu vərdişlərinin təkmilləşdirilməsi;
- intonasiya və vurğu bacarıqlarına diqqət yetirilməsi;
- orfoepik vərdişlərinin təkmilləşdirilməsi;
- rabitəli nitq bacarıqlarının inkişaf etdirilməsi;
- imla, ifadə mətnləri üzrə nitq inkişafı bacarıqlarının inkişaf etdrilməsi;
- inşa mətnləri üzrə nitq inkişafı bacarıqlarının inkişaf etdrilməsi və s. [5, s.120-121].

Morfologiya Azərbaycan dili kursunda nitq inkişafı ilə bağlı ən maraqlı bəhslərdən biridir. Sözün tərkibi, quruluşu, əsas nitq hissələrinin(isim, sifət, say, əvəzlik, feil, zərf) tədrisi prosesində nitq inkişafının müəyyən istiqamətləri, xüsusən lüğət ehtiyatının zənginləşdirilməsi üzrə aparılan işlər böyük əhəmiyyət kəsb edir. Hər bir nitq hissəsinin tədrisi prosesində yeni sözlərin düzəldilməsi, izahı, cümlə daxilində işlədilməsi, lüğətin fəallaşdırılmasına, dəqiqləşdirilməsinə kömək etdiyi kimi, şagirdlərin cümlə qurmaq vərdişlərinin imkişafına da kömək etmiş olur. Nitq hissəsinin tədrisində bu və ya digər nitq hissəsinin üslubi imkanları üzərində aparılan iş də nitq inkişafına xidmət edən mühüm istiqamətlərdən biridir. Məsələn, leksik mənasıa görə gözəl yaraşıqlı sözünün sinonimidir, çirkin sözünün antonimidir. Fonetik cəhətdən gözəl sözündə iki sait, üç samit səs vardır. Sintaktik baxımdan isə gözəl sözü cümlədə təyindir. Morfoloji baxımdan isə gözəl sözü də, onun sinonimi və antonimi olan yaraşıqlı, çirkin sözləri də əlamət bildirir, sifətdir, adi dərəcədədir, özündən sonra gələn ismə aiddir. Substantivləşdikdə hal, kəmiyyət və mənsubiyyət şəkilçisi qəbul edir və dəyişir. Sözdüzəldici

şəkilçi qəbul edərək yeni sözlərin yaranmasına kömək edir: gözəllik, çirkinlik və s. [5, s.122]. Morfologiyanı keçərkən nitqdə düzəltmə sözlərdən yerində istifadə etməyi, sözləri düzgün oxumağı, hər bir nitq hissəsinə aid sözləri cümlədə işlətməyi bacarması şagirdin uğurlu nitq inkişafından xəbər verir.

Nitq inkişafını yalnız Azərbaycan dilinin qayda-qanunlarını düzgün mənimsəmə ilə məhdudlaşdırmaq olmaz. Belə ki, şagirdlərin dil qaydalrını şüurlu dərk etmələri, onların nitq inkişafı üçün geniş imkanlar açır. Nitq inkişafı üzrə iş dil qaydalrının tədrisi prosesində daha səmərəli təşkil olunur. Dil qaydalarının öyrənilməsi nitq inkişafı üzrə işə şüurlu yanaşmanı təmin edir, şagirdlərin nitqində yeni keyfiyyət dəyişmələri baş verir. Bu zaman onlar öyrənilən hər bir nitq hissəsinə aid çalışmaları asanlıqla yerinə yetirirlər.

Dil qaydalarının tədrisi prosesində fonetik-orfoepik, fonetik-orfoqrafik, fonetik-leksik, lüğət-məntiqi, leksik-qrammatik, leksik-morfoloji, leksik-sintaktik, morfoloji-orfoepik, morfoloji-orfoqrafik, morfoloji-sintaktik çalışmalardan istifadə olunması nitq inkişafı üzrə işin təşkilində mühüm yer tutur. İbtidai siniflərdə dil qaydalarının, o cümlədən nitq hissələrinin tədrisinin təcrübi istiqaməti xeyli gücləndirilməlidir. Nitq inkişafı üzrə işin təşkilində müəllimin və şagirdlərin birgə razılığı ilə müəyyən mövzular seçilməli(məktəb, idman, ailə, sevimli əşyalar, əyləncəli oyunlar, metro, kənd, şəhər, tarla, dəniz, arzu, gəmi ilə səyahət, yay tətili, istirahət məkanları, turizm, nağıl, tapmaca, tamaşalar və s.) seçilmiş mövzu ətrafında cümlələr qurulmalı, mətn tərtib edilməlidir. I-II siniflərdə bu işi şəkillər üzrə aparmaq olar. III-IV siniflərdə isə dil qaydaları və nitq inkişafının inteqrativ tədrisi diqqətdə saxlanılmalıdır. Müxtəlif çalışmalarin yerinə yetirilməsində dil qaydaları və nitq inkişafı üzrə işi əlaqələndirmək lazımdır. Məsələn:

- On əlamət bildirən sözə ad bildirən söz tapın və cümlədə işlədin.
- On ad bildirən sözü əlamət bildirən sözlərlə birgə cümlədə işlədin.
- Verilmiş hərəkət bildirən sözləri cümlədə işlədin.
- Uyğun gələn sifətlərdən istifadə etməklə mətni zənginləşdirin.
- Verilmiş isimlərdən sifət düzəldib cümlədə işlədin. Qürur, səliqə, sevinc, fərəh və s.
- Verilmiş isim və sifətlərdən birləşmələr düzəldib cümlədə işlədin.
- Oxuduğunuz mətndə feillərin zamanını dəyişin.
- Verilmiş sayları cümlədə işlədin.
- Verilmiş zərfləri cümlədə işlədin.
- Verilmiş əvəzlikləri işlətməklə cümlə qurun və s.

Nitq hissələrinə aid yaradıcı imlalar, ifadə yazılar və qrammatik inşalar da ibtidai sinif şagirdlərinin nitq inkişafına güclü təsir göstərir.

Nitqin inkişaf etdirilməsində sinonim (gözəl- göyçək; uca-hündür və s.); antonim (acı-şirin, yaxşı-pis və s.) sifətlərdən istifadə edilməsi mühüm əhəmiyyət kəsb edir. Həmçinin "…sifətin tədrisinə bədii əsərlərdən götürülmüş hər hansı parçanın oxunması və təhlili ilə başlamaq olar" [2,133]. Belə olduqda şagirdlərin öyrənilən nitq hissəsinə aid bilikləri mətndəki hadisələrlə birgə qavranılır ki, bu da onların nitqinin inkişafı üçün güclü faktordur.

Dil qaydaları və nitq inkişafının inteqrasiyası zamanı əyanilikdən istifadə faydalıdır. Məsələn, müəllim “Sifət” bəhsini tədris edərkən natural əyanilik vasitəsilə daha cox bilgilər verə bilər. Bu həm “Sifət” bəhsinin asan mənimsənilməsinə, həm də sifətlərdən istifadə etməklə cümlə, mətn qurulmasına- nitq inkişafına imkan yaradır. Məsələn: Alma şirindir. Alma yumrudur. Almanın bir tərəfi qırmızı, bir tərəfi yaşıldır və s.

Mətn: Babam və nənəm Qubada yaşayır. Mən tez-tez babamgilə gedirəm. Babamın böyük alma bağı var. O, həvəslə alma ağaclarına qulluq edir. Mənə bağda olan alma növlərindən danışır. Məhsul yığılanda mənim üçün ən yaxşı meyvələri seçib pay göndərir. Mən babamı çox sevirəm.

“Say” bəhsinin tədrisində də sayılan əşyalarin sinfə gətirilməsi, sinifdəki əşyaların sayılması, sayların cümlələrdə işlədilməsi nitq inkişafını sürətləndirir və mənimsəmənin effektini artırır.

Təlimin ilk mərhələsində şagirdlərə sinif əşyalarının, tədris ləvazimatlarının, bədən üzvlərinin, geyim əşyalarının və s. adları öyrədilir, həmçinin rəngli karandaşlarla rənglərin adını öyrənmək yaxşı nəticə verir. Müəyyən hərəkətləri ifadə edən sözləri öyrədəndə də əşyalardan istifadə etmək mümkündür, məsələn, yandırmaq, söndürmək, kəsmək, soymaq, doğramaq və s. feillərini əşyalarla öyrətmək və onları cümlələrdə işlətmək mümkündür.

Azərbaycan dili təliminin intensivləşdirilməsi və təlimə maraqın yaradılması baxımından dil qaydaları və nitq inkişafının inteqrasiyasında didaktik oyunlardan istifadə böyük əhəmiyyət kəsb edir. Oyun şagirdlərə zehni itilik aşılayır və nitq inkişafı üçün əlverişli şərait yaradır. İbtidai siniflərdə Azərbaycan dili, dil qaydaları oyun prosesində daha maraqla və həvəslə tədris olunur. Mövzulardan aslı olaraq, dərs bütövlükdə oyun şəklində təşkil oluna bilər, bəzən isə dərsə oyun elementləri daxil edilməlidir. Dərslərdə didaktik oyunlardan istifadə edilsə, dərsin keyfiyyəti də yüksək olur. Oyunların keçirilməsində aşağıdakı qaydalara əməl olunmalıdır:

1. Müəllim oyunun qaydalarını bir neçə dəfə təkrarlamalıdır ki, bütün şagirdlər oyunun məzmununu başa düşsünlər.
2. Müəllim oyunun gedişinə aid izahat verməlidir.
3. Oyun məqsədyönlü seçilməlidir. O, seçilərkən şagirdlərdə anlaq səviyyəsi nəzərə alınmalıdır.
4. Oyunu müəllim idarə etməlidir.
5. Oyun çox uzun olmamalıdır. Əgər oyun çox vaxt apararsa, bu, şagirdlər üçün çox darıxdırıcı olar.
6. Hər komandada güclü və zəif şagirdlərin sayı eyni olmalıdır.
7. Bir oyunu tez-tez təkrar etmək olmaz.

Təxminən aşağdakı oyunlardan istifadə etmək olar:

“Kim daha tez?”, “Cəld söylə”, “Hadisəni dəyiş”, “Mətni tamamla”, “Xoşladığın oyun” və s.

Məsələn, nitq hissələrinə aid sözlər deyilir, həmin sözləri cümlədə işlətmək tələbi verilir. Həmin sözlərə daha tez cümlə quran komanda qalib hesab olunur.

Dil qaydalarından sintaksislə nitq inkişafının inteqrasiyası ona görə lazımdır ki, sintaksisin vahidi olan cümlə ünsiyyət vasitəsi olmaqla yanaşı, təfəkkürün inkişafında böyük rol oynayır. Dilin digər sahələrindən biri kimi morfologiyanın ünsiyyətin yaranmasına və təfəkkürün formalaşmasına təsiri yalnız sintaktik zəmində mümkündür. Odur ki, morfoloji kateqoriyaların öyrənilməsi birbaşa onların nitqdəki rolu ilə əlaqələndirilməlidir. Dil qaydalarının sintaktik zəmində öyrənilməsi əsas nitq hissələri ilə yanaşı, köməkçi nitq hissələrinin öyrənilməsinin də zərurət olduğunu ön plana çəkir, çünki cümlələr təkcə əsas nitq hissələri ilə yaranmır, cümlənin tərkibində köməkçi nitq hissələrinin də mühüm əhəmiyyəti vardır.

Nitq vahidi olan cümlənin yaranmasında leksika tikinti materialı, morfologiya bitişdirici rolunu oynayır. Cümlədə bitişdirici kimi köməkçi nitq hissələrinin rolu daha çox olduğu üçün ibtidai siniflərdə köməkçi nitq hissələri haqqında müəyyən məlumatın kurikulum və dərsliklərə daxil edilməsi vacib məsələlərdən biridir.

Dil qaydalarından morfologiyanın sintaktik zəmində tədrisi nitq hissələrinin cümlə daxilində öyrədilməsini nəzərdə tutur ki, bu da birbaşa nitq inkişafı ilə inteqrasiyadır. İbtidai siniflərdə cümlə, cümlədə sözlərin əlaqəsi, söz birləşmələri, məqsəd və intonasiyaya görə cümlənin növləri və s. mövzuların tədrisi nitq inkişafı baxımından çox əlverişlidir. Keçirilməsi nəzərdə tutulan hər bir sintaktik mövzu nitq inkişafı üzrə işin bu və ya digər istiqaməti ilə əlaqəli olur.

Dil qaydalarından morfologiya və sintaksisin tədrisi ilə bağlı aparılan leksik-qrammatik

çalışmalar bir tərəfdən sözün leksik mənası ilə qrammatik mənası arasındakı fərqi başa düşməyə imkan verir, digər tərəfdən də, şagirdlərin lüğət ehtiyatını zənginləşdirir, nitq bacarıqlarını inkişaf etdirir.

Metodik ədəbiyatda nitq inkişafının müxtəlif istiqamətləri ilə bağlı çox dəyərli fikirlər söylənilmişdir, lakin ibtidai siniflərdə dil qaydalarının nitq inkişafı ilə inteqrativ tədrisinə dair sanballı metodik vəsait hazırlanmamışdır. Hər bir müəllim bu işi bacardığı səviyədə aparır, bu isə istənilən nəticəni vermir.

Nitq inkişafının əsas məsələlərindən biri cümlə üzrə işin təşkilidir. Cümlə haqqında praktik bacarıq və vərdişlər uşağın dil açdığı dövrdən yaranmağa başlayır. Təlimin başlanğıcında şagirdlər müəllimin suallarına cümlələrlə cavab verir, ona sual verməyi bacarırlar. Əslində cümlə qurmaq bacarığı zəngin lüğət ehtiyatı tələb edir. Digər tərəfdən, artıq savad təliminə hazırlıq mərhələsində şagirdlər, nitqi cümlələrə ayırmağı bacarır, cümlədə sözlərin sayını, ardıcıllığını müəyyənləşdirə bilirlər. Bu da cümlə, yəni dil qaydaları üzrə işin nitq inkişafı ilə inteqrasiyasının bariz nümunəsidir. Cümlə üzrə işin müxtəlif yolları vardır:

- suallara cavab vermək;
- cümləyə sual vermək;
- cümlədə buraxılmış sözü yerinə qoymaqla onu tamamlamaq;
- sözü başqası ilı əvəz edib cümləni yazmaq;
- cümlədə qrammatik formanı başqası ilə əvəz etmək;
- oxunmuş mətndən obrazlı söz və ifadələri seçib yazmaq;
- verilmiş çoxmənalı sözləri, omonim, sinonim və antonimləri cümlədə işlətmək;
- cümləni genişləndirmək;
- dağınıq verilmiş sözlərdən cümlə qurmaq;
- bu və ya digər mövzuya aid cümlə qurmaq;
- söz birləşməsi tərtib etmək;
- oxunmuş mətndən məzmunla bağlı cümlələri seçmək;
- verilmiş sintaktik model əsasında cümlə qurmaq;
- mənanı saxlamaqla cümləni başqa formada ifadə etmək;
- cümlədə məntiqi vurğunun yerini dəyişməklə mənanı dəyişdirmək;
- iki-üç cümləni bir sadə və ya mürəkkəb cümlədə birləşdirmək və s.

Sadalanan qaydalar əsasında aparılan çalışmalar şagirdlərə cümlə haqqında praktik bacarıq və vərdişlər aşılayır. Daha sonra onlar cümlənin məqsəd və intonasiyaya görə növlərini, onların nitqdə rolunu öyrənirlər.

İbtidai sinif şagirdləri praktik şəkildə cümlə qurmaq vərdişlərinə məktəbə gələnə qədər yiyələnmiş olurlar. Daha doğrusu onlar öz fikirlərini ifadə etmək üçün cümlələrdən istifadə edirlər. Onlar cümlə qurmaq vərdişlərinə iki yolla yitələnirlər: birincisi, tanış sözlərdən özləri cümlə qurur; ikincisi, böyüklərin danışığından, müxtəlif informasiya məbələrindən hazır cümlələri əzbərləyib işlədirlər. Lakin onlar cümlələrdən istifadə etsələr də, cümlənin nə olduğunu, cümlə qurmaq üçün hansı şərtlərə əməl olunmasını bilmirlər. Məktəbə yenicə gələn şagirdlərin böyük əksəriyəti cümlədə sözləri müəyən qayda ilə deyə bilmir, onları mənaca bir-biri ilə müvafiq şəkildə əlaqələndirməkdə çətinlik çəkirlər. Mübtəda və xəbəri düzgün uzlaşdıra bilmirlər. Cümlələrdə bağlayıcılardan, qoşmalardan az istifadə edirlər. Məntiqi vurğuya, intonasiyaya, ritmik bölgülərə düzgün riayət etmirlər. Məsələn, birinci sinfə gedən bir şagirdin nitqindən götürülmüş cümlələrə diqqət yetirək: "Yayda mən atam-anamla kəndə getmişdik. Orada yekə meşə vardı. Mən uşaqlarla meşəni gəzməyə getmişdik. Meşə mənim çox xoşuma gəldi. Meşə yaman sərin idi".

Müəllim dil qaydalarını tədris etməklə, şagirdlərin cümlə qurmaq vərdişlərini inkişaf etdirməklə eyni zamanda nitqi də inkişaf etdirmiş olur.

Savad təlimi dövründə əşya şəkilləri üzərində iş aparması nəticəsində göstərilən şəkillər üzrə " Bu atdır", "Sərçə uçur", "Alma qırmızıdır", "Limon sarıdır" və s. cümlələr qurulur. Bu dövrdə müəllimin tələbi ilə şagirdlər ətraf aləm, öz həyat təcrübələri, oyun və əyləncələri ilə bağlı 2-4 sözdən ibarət cümlələr qururlar. Məsələn: Mənim bir qardaşım var. Anam həkimdir. Atam arıçıdır.

II sinifdə şagirdlər nitqin cümlələrə ayrılmasını, cümlənin bitmiş bir fikir bildirməsini öyrənirlər. Cümlədə kimin və nəyin haqqında danışıldığını, nə deyildiyini bildirən sözlərin seçilməsi üzrə iş aparırlar. Şagirdlər şəkillər, əşyalar üzrə, verilmiş sözlər əsasında, müstəqil şəkildə cümlələr qururlar. Onlar sualların köməyi ilə cümləni genişləndirmək üzrə məşq edirlər. Cümlənin intonasiyaya görə növləri, intonasiyadan asılı olaraq cümlənin sonunda nöqtə, sual və nida işarələrinin qoyulması barədə bilik əldə edirlər. Tədricən belə cümlələri intonasiya cəhətdən fərqləndirməyi bacarırlar. Beləliklə, dil qaydalarının öyrənilməsi nitq inkişafı zəminində baş verir.

III sinifdə cümlə üzrə iş bir qədər də genişlənir və dərinləşir. Şagirdlər cümlənin baş və ikinci dərəcəli üzvləri ilə tanış olurlar. Bu cümlələrin genişləndirilməsi işini daha düşünülmüş və planlı şəkildə aparmağa imkan yaradır. Şagirdlərin cümlə haqqında anlayışları bir qədər də artır. Şagirdlər anlayırlar ki, cümlədə həm fikir, həm də intonasiya bitmiş olmalıdır. Cümlədəki sözlər bir-biri ilə mənaca bağlı olur. Şagirdlər öyrəndikləri nitq hissələrindən istifadə etməklə söz birləşmələri qurur, onları cümlə daxilində işlədirlər. Söz birləşmələri və cümlənin fərqini anlamağa başlayırlar.

III sinifdə cümlənin məqsədə görə növləri(nəqli, sual, əmr, nida) haqqında şagirdlərin bilikləri dərinləşir. Onlar əmr cümləsi ilə tanış olur, əmr cümləsi qurmağı, müxtəsər və geniş cümlələr, müxtəsər cümlələrin genişləndirilməsi və cümlədə intonasiyanı gözləməyi öyrənirlər .

IV siniflərdə şagirdlər mürəkkəb cümlə anlayışı ilə tanış olur, iki sadə cümlədən ibarət mürəkkəb cümlələr qurmağı, mürəkkəb cümlələr üzərində iş, sadə və mürəkkəb cümlələrin müqayisəli tədrisi, cümlələrdəki da, də, ilə, amma, ancaq, lakin, çünki bağlayıcılarından istifadə və s. şagirdlərin cümlə qurmaq bacarığını daha da inkişaf etdirir. Cümlə qurmaq üzrə aşağıdakı konstruksiyalarla iş aparılır:

- Mübtəda və xəbərdən ibarət cümlə (müxtəsər) qurun.
- Mübtəda, xəbər və ikinci dərəcəli üzvlərdən ibarət cümlə (geniş cümlə) qurun.
- Nəqli, sual, əmr və nida cümləsi qurun.
- Həmcins üzvlü cümlə qurun.
- Bağlayıcılı mürəkkəb cümlə qurun.
- Bağlayıcısız mürəkkəb cümlə qurun və s.

Qeyd etmək lazımdır ki, dil qaydaları üzrə işin nitq inkişafı ilə inteqrativ təşkili yolları çoxcəhətli, müxtəlif və rəngarəngdir. İbtidai siniflərdə dil qaydaları üzrə üzrə aparılan bütün işlər nitq inkişafına, son nəticədə rabitəli nitqin inkişafına xidmət edir. Bu prosesdə fəal təlim metodlarından istifadə edilməsi isə nitq inkişafı üzrə işin səmərəliliyini artıran faktor kimi çıxış edir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasinin ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulumu) (I-IV siniflər). Bakı, 2012
2. Abdullayev A.S. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Maarif,

1968, 262 s.
3. Abdullayev N.Ə., Məmmədov Z.T. Nitq mədəniyyəti məsələləri. Bakı: ADPU-nun nəşri, 1978, 74 s.
4. Abdullayev İ. Tarix dərslərində inteqrasiya. Bakı// Kurikulum, 2011, (2)
5. Cəfərova N.B. Nitq inkişafı üzrə işin metodikası. Bakı: ADPU, 2018, 234 s.
6. Həsənov M.M., Cəfərova N.B.İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Mütərcim, 2013, 412 s.
7. Həsənov M.M., Cəfərova N.B., Bəhmənova C.D. İbtidai sinif müəllimləri üçün kurikulumun məzmunu və həyata keçirilməsi yolları. Bakı: Elm və təhsil, 2014, 70 s.
8. Kərimov Y.Ş. İbtidai siniflərdə Azərbaycan dili dərslərində lüğət işinin əsasları. Bakı: Maarif, 1978, 220 s.
9. Qurbanov V.T. Azərbaycan dili təlimində fəndaxili əlaqələr. Bakı : Müəllim, 2008, 181s.
10. www.facebook.com/1500969840121805/photos/fəndaxili-və-fənlərarası-inteqrasiya
11. http://elmi-ish.az/index.php?newsid=92

Н.Джафарова

Интегративная организация работы по языковым
правилам с развитием речи

Резюме

Языковые правила предоставляют студентам контент в форме компактных, простых, четких правил и интерпретаций наиболее важных знаний о фонетической, лексической и грамматической структуре языка, соблюдении правил орфографии и правильном использовании знаков.

Это создает основу для развития у студентов навыков чтения и письма. Активность учителя в начальных классах измеряется уровнем речевых навыков и и культурой речи учащихся. Языковые правила служат для организации работы по развитию речи и формированию культуры речи. Языковые правила предоставляют учащимся наиболее важные лингвистические знания,понимание основных требований к культурой речи, понимание отличительных особенностей функционального и индивидуального стилей литературного языка и их применении на практике.

Интеграция языковой работы с развитием речи способствует правильному произношению и написанию слов. Учащийся, который принимает языковые правила, может применить его к сотням слов, сначала выучив слова, которые произносятся в устной речи и относительно легко произносятся, а затем трудные слова,отличающиеся в написании и произношении.

**Ключевые слова:** языковые правила, развитие речи, устная речь, письменная речь, интеграция

N.Jafarova

Integrative organization of work on language rules with the development of speech

Summary

Language rules provide students with content in the form of compact, simple, clear rules and interpretations of the most important knowledge of the phonetic, lexical and grammatical structure of the language, compliance with the rules of spelling and proper use of signs. This creates a basis for students to develop reading and writing skills.

The activity of a teacher in primary school is measured by the level of speech skills and the culture of speech of students. Language rules serve to organize work on the development of speech and the formation of a culture of speech. Language rules provide students with the most important linguistic knowledge, understanding of the basic requirements for the culture of speech, understanding the distinctive features of the functional and individual styles of literary language and their application in practice.

The integration of language work with the development of speech contributes to the correct pronunciation and spelling of words. A student who accepts language rules can apply it to hundreds of words, first learning words that are spoken and relatively easy to pronounce, and then difficult words that differ in spelling and pronunciation.

**Key words:** language rules, language development, oral speech, written speech, integration

Redaksiyaya daxil olma tarixi: 21.06.2019
Çapa qəbul olunma tarixi: 08.08.2019
Filologiya elmləri doktoru, professor Fikrət Xalıqov tərəfindən çapa tövsiyə olunmuşdur.